Cəsarətli, ağıllı, gözəl və
bir qədər etibarsız, gicbəsər qızım
Erinə həsr olunur.

## TƏŞƏKKÜRLƏR

Bu kitabları qəlbən sevdiyinə görə bütün "Nikkinin gündəliyi" pərəstişkarlarına minnətdarlığımı bildirirəm. Sizsiz bir Nikki Maksvel ola bilməzdi. Çünki O SİZSİNİZ! Özünüz kimi qalın və daxili Axmaqlığınızın parlamasına imkan verməyi unutmayın.

Liesa Abrams Mignogna – mənim bənzərsiz redaktorum bu kitabları yazmağı o qədər ruhlandırıcı və o qədər əyləncəli edir ki, yuxu görmədiyimə əmin olmaq üçün HƏLƏ də özümü çimdikləyirəm. Nikki Maksvel kimi sən də foto çəkməyi sevən heyrətamiz real Axmaqsan. Mənim xəyal etdiyim redaktor olduğun üçün sənə təşəkkür edirəm!

Bu kitab seriyası üzərində yorulmadan çalışan və "Nikkinin Gündəlikləri"nin personajlarını yaxşı tanıyan Liza Veqa – mənim super istedadlı bədii rəhbərim.

Mara Anastas, Paul Crichton, Carolyn Swerdloff, Matt Pantoliano, Katherine Devendorf, Alyson Heller və Aladdin Simon & Schuster-dəki digər gözəl komandam, bu seriyanı mükəmməl etmə qabiliyyətiniz və zəhmətinizə görə sizə təşəkkür edirəm.

Yazıçılar Evi, istiqanlılığınız və göz yaşlarınız üçün çox sağ olun!

Deməyə ehtiyac yoxdur ki, mən sizsiz heç bir şey yarada bilməyəcəkdim. Siz mənim arzularıma və bir qədər ağılsız ideyalarıma dəstək oldunuz!

"Yazıçılar Evi"ndə mənim yazıçı hüquqlarımı qoruyan xarici agentlərim Maja Nikolic, Cecilia de la Campa, Angharad Kowala, dünyadakı bütün uşaqlara kitablarımı çatdırdığınıza görə sizə sonsuz təşəkkürümü bildirirəm!

Nikki Rassel – mənim super istedadlı rəssam və Erin Rassel – super istedadlı yazıçı köməkçilərim! Haradan başlayım?! İlk onu deyim ki, sizin ananız olduğum üçün çox xoşbəxtəm! Bu seriyaları dünyaya gətirməyə kömək etdiyiniz üçün sizə minnətdaram! Siz məni bu kitabları yazmağa ilhamlandıran əsl Axmaqlarsınız! Sizin ikinizi də çox sevirəm!

## BAZAR GÜNÜ, 1 DEKABR

Allahım!

Həyatım boyu heç vaxt bu qədər UTANMAMIŞDIM!!

Və bu mənim snobbist düşmənim, dodaq parıldadıcısı ilə qarşımda duran MakKenzi Hollisterin əli ilə baş verməmişdir.

Hələ də doğma bacım Briannanın niyə məni bu qədər alçaltdığını anlaya bilmirəm.

Hər şey bu gün günortadan sonra, saçımın kartof qızartmasından daha yağlı olduğunu görəndə başladı. Mənim ya duşa, ya da təcili "Jiffy Lube" yağ dəyişdirilməsinə ehtiyacım vardı. Vallah, yalan danışmıram!

Vanna otağına heç bir dəqiqə deyildi ki, keçmişdim, BİRİSİ manyak kimi qapını döyməyə başladı. Mən əsəbi halda duşun altından "nə baş verir?!" deyə soruşdum.




– Vanna otağını daha nə qədər zəbt edəcəksən? – Brianna qışqırdı. – Nikki?!

BAM! BAM! BAM!

– Brianna, bəsdir, qapını sındırdın! Mən duş qəbul edirəm!

– Axı mən orada gəlinciyimi unutmuşam. O, miss Penelopa ilə hovuz partisi keçirirdi və...

– Nə? Bağışla məni, Brianna! Lakin mən sənin tualetə necə getdiyini dinləmək istəmirəm.

– Xeyr! Mən HOVUZ PARTİSİ dedim! Mən ora gəlib gəlinciyimi götürməliyəm!

– Mən qapını indi aça bilməyəcəyəm. ÇIX GET!!!

– Nikki, mən tualetə istəyirəm axı. Vəziyyət yaxşı DEYİL!

– Aşağıdakı tualetə get!

– Axı mənim gəlinciyim aşağıdakı tualetdə deyil!

– Bağışla, amma sən indi gəlinciyini götürə bilməyəcəksən. Mənim duşdan çıxmağımı gözləməlisən!

Bir dəqiqə sonra...




NİKKİ, QAPINI AÇ! SİZİN TELEFON ZƏNGİNİZ VAR! NİKKİ?!

– Sən qapını açmalısan, çünki sənə zəng edirlər!

BAM! BAM! BAM!

Brianna məni axmaqmı zənn edir, ya nə? Hansısa telefon zənginə görə hamam otağının qapısını açmaq niyyətim yox idi.

– Brianna, onlara de ki, mən hal-hazırda telefonla danışa bilmərəm.

– Alo, Nikki dedi ki, indi telefona cavab vermək istəmir. Mən onu bilmirəm. Gözləyin...

Nikki, bu adam təkrar nə vaxt zəng edəcəyini bilmək istəyir.

BAM! BAM! BAM!

– Nikki, bu adam bilmək istəyir ki...

– HEÇ VAXT! Onlara de ki, HEÇ VAXT! Cəhənnəmə qədər yolları var. Hazırda etmək istədiyim tək şey DUŞ qəbul etməkdir. Odur ki, Brianna, məni rahat burax!!

– Alo, Nikki söylədi ki, ona bir daha zəng etməyəsiniz. Hətta ölə də bilərsiniz! Bir düşünün niyə görə?!

Birdən ağlıma gəldi ki, bəlkə, doğrudan da, kimsə telefon xəttində məni gözləyir. Axı **KİM** ola bilərdi? Mənə nadirən kimsə zəng edirdi.

– Çünki sizin bitləriniz var! Buna görə!

Brianna kriminal filmlərdəki dəli kloun kimi güldü.

Mən narahat oldum, çünki bu təhqir real səsləndi... çox tanış idi. Hələ dünən eyni ifadəni başqa birisinə də demişdi. Axı o insan bir daha niyə mənə zəng etsin ki?

Mən qəfildən içimdə doğan ağrını və təlaşı basdıra bilməyərək qışqırmağa başladım: YOOOOOOOOX.

Dəsmaldan yapışaraq islanmış və tamamilə sabun köpüyü ilə örtülmüş vəziyyətdə duşdan çıxdım.

– Yaxşı, Brianna! – pıçıltı ilə dedim. – Tez ol, telefonu mənə ver!

Lakin o sadəcə mənə dilini göstərib, sanki bağça yoldaşı ilə danışırmış kimi söhbətinə davam etdi.

Nikki həmişə vanna otağındadır!
Anam həmişə onu danlayır, çünki o, çox səliqəsizdir.
Səhərlər yuxudan oyananda qorxunc görsənir. Ona görə ki, ayaqları tüklü, gözləri isə pılçıqlı olur!



İnana bilmirdim ki, Brianna mənim haqqımda bu şəkildə danışa bilər.
Buna nə haqqı vardı?

– Brianna! Telefonu mənə ver, yoxsa!..

– "Lütfən, zəhmət olmasa, üstünə də şəkər qoy" de!

– Oldu! Lütfən, zəhmət olmasa, o telefonu mənə ver, üstünə də şəkər qoy!

– Yox! Çox pis alındı! – Sonra o balaca şeytan mənə tərəf dilini çıxartdı (YENƏ!) və telefonla danışmağa davam etdi.

– Nə isə, rəfiqəm miss Penelopa Nikkinin yeni ətrini oğurlayıb. Burnu olmasa da, ətri bəyənir. Gözəl qoxu olsun deyə, onu əşyaların üzərinə püskürtdük. Həmçinin onu mənim ayaqlarıma, qarajdakı zibil qutusuna və hətta missis Uollabengerin həyətindəki ölü dələyə də püskürtdük!

Telefon zənglərimi ələ keçirməsi kifayət qədər pis vərdiş idi. Amma o mənim "Sassy Sasha" ətrimlə də ətrafı sulayır?! Mən onu BOĞMAQ istəyirdim!

– O telefonu mənə ver, balaca YARAMAZ! – deyə boğularaq qışqırdım.

Lakin o mənə "Əlvida!" deyib qaçdı.




Briannanın dalınca qaçmaq ÇOX təhlükəli idi.

İlahi! Mən bir göz qırpımında pilləkəndən sürüşərək mətbəxə yuvarlandım.

Nəhayət, Briannanı küncə sıxdım və onun öhdə

sindən gəlməyə hazırlaşırdım ki, telefonu yerə atdı və dəhlizdə "Kömək edin! Kömək edin!" deyə qışqıraraq qaçdı.

– Vanna otağındakı lilin duşdan sonra əlləri və ayaqları böyüyüb, məni udmağa çalışır! 9-1-1-ə zəng edin!

Telefonu götürdüm və nə vəziyyətdə olduğumu unudaraq soyuqqanlı davranmağa çalışdım...



1. Hamam dəsmalında

2. Su içində VƏ

3. Çox çirkli lamaların kiçik bir sürüsünü yumaq üçün kifayət qədər sabun köpüyü ilə örtülmüşdüm.

Boğazımı arıtladım və ən xoş, ən şirin səslə:

Alo!" – dedim.